ŞƏFFAFLIQ
AZƏRBAYCAN

*MƏTBUAT ÜÇÜN MƏLUMAT*

**Əlaqə:**
Samir Əlibəyov
İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis
Tel: (994 12) 418 11 09
Faks: (994 12) 596 20 38
E-mail: samir@transparency.az

**"Şəffaflıq Azərbaycan" təşkilatı Azərbaycan Respublikasının 5 regionunda 9 dekabr – ümumdünya korrupsiya qarşı mübarizə gününə həsr olunmuş "Korrupsiyaya YOX de!" şüarı altında "Milli Antikorrupsiya Həftələri" (MAH) Kampaniyasını keçirmişdir.**

**11 dekabr** - "Transparency İnternational" beynəlxalq təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" ("ALAC") Layihəsi, habelə "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın maarifləndirmə komponenti çərçivəsində cari ilin noyabr və dekabr aylarında təşkilatın bütün beş mərkəzlərində "Korrupsiyaya YOX de!" şüarında "Milli Antikorrupsiya Həftələri" kampaniyasını yerli KİV, QHT və könüllülərin cəlb olunması ilə həyata keçirmişdir.

Bu kampaniya aşağıdakı göstərilən fəaliyyətlərdən ibarət idi:

1. ***Geniş İctimaiyyətin Məlumatlılığın Artırılması***
2. ***İctimaiyyətin Maarifləndirilməsi: hədəf qrupları – Müəllimlər və Tələbələr***
3. ***Yekun press konfrans və "Korrupsiya ilə üz-üzə" Karikaturalar Kitabçasının təqdimatı***

✓ ***Geniş İctimaiyyətin Məlumatlılığın Artırılması*** – Bu fəaliyyət növü ALAC layihəsi barəsində və Dövlətin və vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizədə səyləri haqqında bir sıra məlumatlandırma aksiyalarından ibarət idi:

- qapıdan-qapıya - ALAC mərkəzlərinin xidmətləri barəsində vətəndaşların məlumatlandırması;
- ictimai yerlərdə fərdi görüşlər;
- avtobus dayanacaqlarında və digər ictimai yerlərdə posterlərin yapışdırılması;
- AR antikorrupsiya qanunvericiyindən çıxarışlardan ibarət olan məlumat vərəqələrin ictimai yerlərdə paylanması;
- lazım gəldikdə, yerindəcə hüquqi məsləhətlərin verilməsi.

Həmin aksiyalar Lənkəran, Gəncə və Şəki şəhərlərində keçirilmişdir:

***23 noyabr*** – *Lənkəran şəhəri* - 6 saatlıq aksiya 300 nəfər vətəndaşı əhatə etmişdir.






***29 noyabr*** – *Gəncə şəhəri* – 5 saatlıq aksiya mərkəzin bütün könüllülərin iştirakı ilə şəhərin 100 qədər ictimai yerlərdə keçirilmiş və 800 nəfər vətəndaşı əhatə etmişdir.





***4 dekabr*** – *Şəki şəhəri* - 6 saatlıq aksiya mərkəzin 4 könüllüsü və 3 yerli qəzetlərin müxbirlərin iştirakı ilə şəhərin ictimai yerlərində və "qapıdan-qapıya" keçirilmiş və 500 nəfər vətəndaşı əhatə etmişdir.





✓ ***İctimaiyyətin Maarifləndirilməsi: hədəf qrupları – Müəllimlər və Tələbələr*** **–** Bu fəaliyyət növü çərçivəsində ALAC mərkəzlərinin əməkdaşları və könüllüləri aşağıda göstərilən tədris müəssisələrində 1,149 nəfər üçün 16 seminar keçiriblər**:**

| ALAC Mərkəzi | Seminarların sayı | Tarix | Tədris müəssisəsinin adı, hədəf qrupu | İştirakçıların sayı |
|---|---|---|---|---|
| Bakı | 5 | 24 noyabr | Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutu, orta məktəblərin müəllim heyəti | 8 nəfər |
| | | 25 noyabr | | 17 nəfər |
| | | 26 noyabr | | 23 nəfər |
| | | 28 noyabr | | 37 nəfər |
| | | 1 dekabr | | 17 nəfər |
| Gəncə | 2 | 2 dekabr | Gəncə Dövlət Universiteti, tələbələr və müəllim heyəti | 54 nəfər |
| | | 4 dekabr | Azərbaycan Kənd Təsərrüfatı Akademiyası və Azərbaycan Texnologiya Universiteti | 186 nəfər |
| Lənkəran | 3 | 22 noyabr | Lənkəran Dövlət Humanitar Kolleci, tələbələr və müəllim heyəti | 189 nəfər |
| | | 24 noyabr | Lənkəran Tibb Məktəbi, tələbələr və müəllim heyəti | 97 nəfər |
| | | 25 noyabr | Lənkəran Dövlət Universiteti, tələbələr və müəllim heyəti | 92 nəfər |
| Quba | 3 | 24 noyabr | Quba Dövlət Sosial İqtisad Kolleci, tələbələr və müəllim heyəti | 60 nəfər |

| | | | | |
|---|---|---|---|---|
| | | 25 noyabr | Azərbaycan Respublikası Müəllimlər İnstitutunun Quba filialı, tələbələr və müəllim heyəti | 97 nəfər |
| | | 27 noyabr | Azərbaycan Dövlət Pedaqoji Kollecinin Qusar filialı, tələbələr və müəllim heyəti | 117 nəfər |
| Şəki | 3 | 25 noyabr | Şəki Şəhər Musiqi Texnikumu, tələbələr və müəllim heyəti | 30 nəfər |
| | | 26 noyabr | Şəki Şəhər Tibb texnikumu, tələbələr və müəllim heyəti | 100 nəfər |
| | | 27 noyabr | Şəki Şəhər 11 saylı orta məktəb, müəllimlər | 25 nəfər |
| **Cəmi:** | **16 seminar** | | **13 təhsil müəssisəsi** | **1,149 nəfər** |

Seminar iştirakçılarına "Şəffaflıq Azərbaycan" İB və "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" ("ALAC") layihəsinin xidmətləri barəsində məlumat verilmişdir. Həmçinin, korrupsiyaya qarşı mübarizədə "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" çərçivəsində Dövlət tərəfindən edilən səylər, və Dövlətin QHT-lərlə əməkdaşlığı müzakirə olunmuşdur.








***Yuxarıdakı şəkillərdə:*** Seminarlar zamanı

Dinləyicilərə Strategiya və Antikorrupsiya qanunvericiliyin çıxarışlarından ibarət məlumat vərəqələri paylanmışdır. Bundan əlavə, Dövlətin QHT-lərlə əməkdaşlığın nümunəvi göstəricisi olan "Şəffaflıq Azərbaycan" İB və AR Təhsil Nazirliyinin antikorrupsiya qaynar xətlərin telefon nömrələrini üzərində əks etdirən flayer-təqvimlər paylanılmışdır. Bu əməkdaşlıq təcrübəsi artıq ikinci ildir ki, ali təhsil müəssisələrində imtahanlar qabağı həyata keçirilir.







Seminarlar Təhsil Nazirliyi və Təhsil Müəssisələrinin rəhbərlərinin dəstəyi və köməyi ilə "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"-nın maarifləndirmə komponenti çərçivəsində həyata keçirilmişdir.

Kampaniya müddəti ərzində (22 noyabr – 11 dekabr) ölkənin 5 regionunda birbaşa 2700-dən artıq, dolayısı 9000-dək vətəndaş məlumatlandırılmışdır.

- ✓ ***Yekun press konfrans və "Korrupsiya ilə üz-üzə" Karikaturalar Kitabçasının təqdimatı*** **–** 2007-ci ilin dekabr ayında "Şəffaflıq Azərbaycan" təşkilatı korrupsiya fenomenini ifşa etmək məqsədilə "Korrupsiya ilə üz-üzə: Azərbaycan karikaturaçıları Rüşvətxorluq əleyhinə" adı altında "Abşeron" Rəsm Qalereyasında karikaturalar sərgisini keçirmişdir. Böyük Britaniyanın Azərbaycandakı Səfirliyinin maliyyə dəstəyi ilə keçirilmiş sərgidə həm gənc rəssamların, həm də professional karikaturaçıların rəsmləri nümayiş olunmuşdur. Sərgi Azərbaycanda Antikorrupsiya ruhunda təşkil olunan ilk ən iri kolleksiya olmuşdur. Həmin sərgi də "Şəffaflıq Azərbaycan" təşkilatının həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" Layihəsinin maarifləndirmə fəaliyyəti çərçivəsində keçirilmişdir. Tədbirdə beynəlxalq təşkilat və QHT nümayəndələri ilə bərabər, geniş ictimaiyyət nümayəndələrinin də iştirak etmişdirlər.





***Yuxarıdakı şəkillərdə:*** Sərgi zamanı

"Qaradağ Sement" ASC-nin rəhbərliyi sərginin qonaqları olaraq, həmin karikaturaları kitabça şəklində çap etməyi təklif etmişdirlər. Həmin təklifin nəticəsində "Korrupsiya ilə üz-üzə" karikaturalar kitabçası "Qaradağ Sement" ASC-nin maliyyə dəstəyi ilə nəşr olunmuşdur və bu gün, 11 dekabr, "Milli Antikorrupsiya Həftələri" kampaniyasının son günündə, geniş ictimaiyyətə təqdim olunur.




*2005 ci il Aprel ayının 1-dən etibarən "Transparency İnternational" Təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi MDB ölkələri arasında ilk olaraq yeni – "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" layihəsini həyata keçirir, və layihənin Bakı, Gəncə, Lənkəran, Quba və Şəkidə mərkəzləri mövcuddur. Layihənin məqsədi "Vətəndaşları cəmiyyətdə baş verən korrupsiya halları ilə fəal mübarizəyə cəlb etməkdir". Milli Antikorrupsiya Həftələri" Kampaniyası həmin layihənin maarifləndirmə və məlumatlandırma komponenti çərçivəsində və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD), ATƏT-in Bakı ofisinin və "Qaradağ Sement ASC" maliyyə dəstəyi ilə həyata keçirilmişdir.*

*"Şəffaflıq Azərbaycan" və ALAC layihəsi haqqında əlavə məlumat almaq üçün www.transparency.az internet səhifəsinə müraciət edə bilərsiniz.*